# Şuşa bizimdir və həmişə bizim olacaq!

***Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi hamımızın ürəyincə oldu. Bu qərar, ümumiyyətlə, ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Uşaqdan-böyüyə qədər hamı bilir ki, Şuşa tarixən Azərbaycanın olub, Azərbaycanındır və əbədiyyətə qədər də torpağımızın müqəddəs bir guşəsi kimi qalacaq. 2020-ci il noyabrın 8-də möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuz dünyanı heyrətləndirən qeyri-adi hərbi taktika ilə Şuşanı düşməndən azad etdi və "Şuşa bizimdir!" həqiqətini dünyaya bəyan etdi.***



İnanıram ki, Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi və bundan irəli gələrək, tədbirlər planının hazırlanmasına dair imzaladığı sərəncam və verdiyi tapşırıqlar ən yüksək səviyyədə icra olunacaq. Dünya ictimaiyyəti bir daha şahid olacaq ki, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa bizimdir. Dövlət başçımızın sərəncamından sonra görüləcək işlər və həyata keçiriləcək tədbirlər UNESCO-nun da bu il keçirəcəyi ən mötəbər tədbirlər sırasında yer alacaq.

Mən şuşalı olmağımla qürur duyuram. Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşa işğaldan azad olunan gün – noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciətində verdiyi həmin xoş xəbər bu gün də qulaqlarımda cingildəyir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Bu şad xəbər Azərbaycanı ayaq üstə qaldırdı. İnsanlar küçələrə, meydanlara axışaraq qürur və böyük sevinc hisslərini paylaşır, bir-birinə gözaydınlığı verirdilər.

Prezident İlham Əliyevin həmin gün səsləndirdiyi bu sözlər indi də təkcə mənim yox, bütün soydaşlarımızın qulaqlarında əks-səda verir. 2020-ci il noyabrın 8-i şanlı qələbəmiz Zəfər Günü kimi Azərbaycan tarixinə əbədi yazıldı. Təsadüfi deyil ki, Şuşanın işğaldan azad olunduğu gün Prezident İlham Əliyevin sərəncamı ilə "Zəfər Günü" elan edildi.

Şuşada olan 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, bir neçə kilsə və monastır, 2 qəsr və 72 mühüm sənət və tarixi abidənin, demək olar, hamısının adları azərbaycanlılarla, azərbaycançılıqla bağlıdır. Yarandığı dövrdən etibarən əhalisi ancaq azərbaycanlılardan ibarət olan və dövlətimizin böyük səyi nəticəsində 2001-ci il oktyabrın 24-də UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin ilkin siyahısına daxil edilmiş tarixi-memarlıq qoruğuna malik Şuşa şəhəri Vətən müharibəsindən sonrakı dirçəlişinə mədəniyyət paytaxtı kimi başlayıb.

2022-ci ilin "Şuşa ili" elan edilməsi bu ilin əhəmiyyətini, tarixiliyini bir anın içərisində qat-qat böyütdü, artırdı. Əslində, 1992-ci il mayın 8-dən, Şuşa təcavüzkar Ermənistan ordusu tərəfindən işğal olunandan sonra keçən hər il bizim üçün "Şuşa ili" olub. Şuşasız keçirdiyimiz hər il, hər ay, hər gün həsrət və niskilsiz ötüşmədi. Bu kədəri bizə yaşadan düşmənə nifrət, qəzəb sonsuz idi və getdikcə daha da çoxalır və səbr kasamızı doldururdu. Nəhayət, möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti işğala, Şuşasız günlərimizə son qoydu.

Hazırda ilk günlərini yaşadığımız 2022-ci il "Şuşa ili"dir. Düşmənə və havadarlarına əsl göz dağıdır! "Şuşa ili" 30 illik ağrı-acılarımıza, əzab-əziyyətlərimizə bir məlhəmdir. Eyni zamanda, hərbi Zəfərimizin, şanlı Qələbəmizin siyasi, iqtisadi, mədəni və mənəvi sahələrdə daha da möhkəmləndirilməsidir.

***Havva MƏMMƏDOVA,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, tarix elmləri doktoru***

Xalq qəzeti .- 2022.- 7 yanvar.- S.5.